**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİNİN BƏYANATI

**No: 09/37/116**
**21.10.2009**

Yarandığı gündən etibarən iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsini qarşısına məqsəd qoyan və bu istiqamətdə hər iki ölkənin birgə tanıdılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirən Azərbaycan Türkiyə İş Adamları Birliyi son günlər Azərbaycan və Türkiyə arasında münasibətlərin gərginləşdirilməsi istiqamətində atılan provokativ addımları böyük narahatçılıq və gərginliklə izləyir.

Azərbaycan Türkiyə İş Adamları Birliyi bildirir ki, bu cür provokativ şayiələrdən biri də guya Azərbaycanda Türkiyə iş adamlarına qarşı təzyiqlərin edilməsi ilə bağlıdır. Bununla bağlı bəyan edirik ki, Azərbaycanda Türkiyə iş adamlarına qarşı təzyiqlərin edilməsi ilə bağlı şayiənin heç bir əsası yoxdur və Türkiyə iş adamları Azərbaycanda fəaliyyət göstərən digər yerli və xarici iş adamları kimi işlərini həmişəki qaydada davam etdirirlər.

Azərbaycan Türkiyə İş Adamları Birliyi hər iki ölkənin vətəndaşlarını bu cür provokativ addımlara uymamağa və soyuqqanlı hərəkət etməyə çağırır.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**